

*Seyran CAVADOV*

## *Belədir təbiətim*

Bir iş gəlsə bil başıma,
Ağlamaram, sızlamaram.
Haray-həşir qoparmaram.
Həzin-həzin, için-için
Qovrularaq yansam belə,
Çətinliyin, fəlakətin
Qarşısında baş əymərəm.
Dözüb hər cür əzablara,
Dar gündə də, pis anda da,
Dəyanətlə, cəsarətlə
dayanaram.

Şax saxlaram qamətimi,
Dik tutaram mən başımı.
Ürəyimin yanğısına
Tab etməsə əgər gözüm,
Mən boğaram göz yaşımı.

Yad ellərdən, yad əllərdən,
Namərdlərdən, nakəslərdən
Kömək, imdad diləmərəm.

Bir özümə, bir sözümə,
Bir elimə güvənərəm.
Yaxşı-yaman sərhəddində
dayanmaram.
-Ver qanını, ver canını! -
Desə yaxşı,
Bil, hazıram.
Yaman üçün yamandan da
mən yamanam.
Yamanlığı, harda olsa,
Gözlərimlə, sözlərimlə
Əridərəm, güllələrəm.

Yaxşılığın başı üstə
Dəstə-dəstə gül ələrəm.
Təbiətim budur mənim,
Qanla, canla mən beləyəm.
Öz xalqımın, millətimin
Damlasıyam, zərrəsiyəm.

## *Bənzərlik*

Mən dənizə bənzərəm,
Dəniz məhəbbətimdir.
Ləpələri sahilə
Çarpılan həsrətimdir.

Mən dənizə bənzərəm,
Sular sərinliyimdir.
Dalğasız sakitliyim
Fikir dərinliyimdir.

Mən dənizə bənzərəm,
Çağlayaram, coşaram.
Bircə yolluq ömrümü
Dəniz kimi yaşaram,
Özüm kimi yaşaram.

## *Dost sözü*

Mənə doğru bir addım atsan əgər, a dostum,
Sənə qarşı beş addım gələcəyəm, əmin ol.
Yalan desəm, tükənsin suyum, çörəyim, odum,
Tanrı, özün sən mənim cəzamı ver, qənim ol.

Quruca bir söz ilə təsəlli verib mənə
Dərdimə şərik olsan ən kədərli anımda,
Dara düşsən, baxmayıb dağa, dumana, çənə,
Simruq quşuna dönüb olacağam yanında.

Düşünmə, sözlərimlə umuram bir təmənna,
Qəlbimin hökmü ilə bu şerimi yazıram.
Nə qədər əzizdirsə Vətən, bir də ki ana,
Dost yolunda da, bil ki, hər cəfaya hazıram.

## *Onsuz nəyə dəyər*

Atlar yəhərlənsin, "Cəngi" çalınsın,
Vətən dar gündədir, Vətən anılsın.
Oğullar cəbhəyə yola salınsın.
Torpaq namusumuz, torpaq arımız,
Onsuz nəyə dəyər yaşamağımız?!

Onda babaların ruhu uyuyur,
Ruhlar narahatdır, bunu qəlb duyur...
Dar gündə torpağı kişi qoruyur.
Torpaq bizim üçün ana, bacı, qız,
Onsuz nəyə dəyər yaşamağımız?!

Düşmən diş qıcayıb hey zaman-zaman,
İgidlər, ərənlər verməyib aman.
Qurulan, tikilən olsa da viran,
Torpaq kədərimiz, torpaq ahımız,
Onsuz nəyə dəyər yaşamağımız?!

Səfərbər olağın bir nəfər kimi,
Qoyağın bir yana qərəzi, kini.
Gəlin qoruyağın Vətən mülkünü.
Torpaq beşiyimiz, həm məzarımız,
Onsuz nəyə dəyər yaşamağımız?!

(1992-ci il)